SOCAR UPSTREAM

**SOCAR Upstream Management International MMC**
Heydər Əliyev pr.121,
AZ1029, Bakı, Azərbaycan,
SOCAR Tower 7-ci mərtəbə

Tel: +(994 12) 521 26 37
Fax: +(994 12) 521 26 38

**SU/EB 23.05.116**

**08 may 2023-cü il**

**"A-Group Sığorta Şirkəti" ASC-nin**

**rəhbərliyinə**

**Hörmətli cənablar,**

Könüllü tibbi sığorta məhsulunun ölkəmizdə sosial yardım proqramı olaraq deyil, məhz biznesin bir növü kimi çıxış etməsinə baxmayaraq, "A-Group Sığorta Şirkəti" ASC-nin sığortaolunanlarımıza göstərdiyi qayğı, diqqət və fərdi yanaşma qeyd olunan şirkətin sadəcə biznes maraqlarından çıxış etmədiyini və ilk növbədə insan sağlamlığının qorunmasına və bərpasına önəm verdiyini göstərir.

"A-Group Sığorta Şirkəti" ASC ilə 7 illik əməkdaşlığımız çərçivəsində ilk növbədə onu qeyd etmək olar ki, şirkət daim yenilikçi yanaşmalar, məhsullar və xidmətlər təqdim etməyə sadiqdir. "A-Group" mütəmadi olaraq həyata keçirdiyi tədqiqat, qabaqcıl texnologiyanın tətbiqi və məlumatlar bazasının yenilənməsi vasitəsilə daim dəyişən və inkişaf etməkdə olan ehtiyacların qarşılanmasını hədəf götürmüşdür. Müştəri məmnuniyyətinin əsas faktoru olan keyfiyyət amili sözügedən sığorta şirkətinin daim diqqətindədir.

Xüsusilə də son dövrlərdə şirkətin mobil tətbiqetməsinin təsisi, çağrı mərkəzinin işinin optimallaşdırılması, xəstəxanalarda konsyerj xidmətinin təmini "A-Group" şirkətini daha da arzuolunan edir. Eyni zamanda, sığortaolunanların irad və təkliflərinin operativ cavablandırılması və münasibət bildirilməsi, həkim müayinəsindən keçmiş şəxslərin səhhəti ilə maraqlanması "A-Group" şirkətinin üstün cəhətlərindəndir.

Əminik ki, "A-Group Sığorta Şirkəti" ASC ilə əməkdaşlığımızdan əldə etdiyimiz məmnunluq digər şirkətlər tərəfindən də hiss olunacaqdır.

**Hörmətlə,**

**İcraçı direktor** **Emin Babayev**

Azərbaycan Respublikası "Socar Upstream Managament International" MMC
Azerbaijan Republic "Socar Upstream Managament International LLC"
SOCAR UPSTREAM